***Dövlət başçısının tapşırığına əsasən, ölkədə əhalinin rifahının yüksəlməsi, sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində davamlı olaraq zəruri tədbirlər həyata keçirilir. Bu mənada, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) gördüyü işlərə nəzərə salmaq kifayətdir ki, nəticəsi məmnunluq yaradan işlərin dəyəri və miqyası anlaşılsın. ƏƏSMN yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsindən icbari sığorta olunmalarına elektron sistem üzərindən nəzarəti davam etdirməsi diqqətəlayiqdir. Belə ki, icbari sığorta müqaviləsi olmayan işçilər üzrə işəgötürənlər müəyyən olunub, onların bu müqavilələri bağlamaları üçün "Əmək müqaviləsi bildirişi" altsistemində xəbərdarlıq məlumatları yerləşdirilib, həmçinin bu sahədə inzibati xəta halları aşkar olunan işəgötürənlə bağlı qanunvericiliyə uyğun tədbirlər görülüb. Görülən işlərin nəticəsi kimi son bir ildə 632 işəgötürən tərəfindən işçilərinin icbari sığorta olunmaları üçün müqavilələr bağlanması təmin edilib.***




# Əhalinin sosial müdafiəsi sahəsində genişmiqyaslı tədbirlər davam edir



Hazırda ƏƏSMN və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsinə qoşulmaq üçün 2022-ci il üzrə vətəndaşların müraciətlərinin qəbuluna başlanıb. Layihə qabaqcıl beynəlxalq təcrübə əsasında özünüməşğulluq proqramının genişləndirilməsinə dəstək məqsədi daşıyır. Həmin proqramın icrası zamanı işsiz kimi qeydiyyatda olan şəhid ailəsi üzvləri, Vətən müharibəsi əlilləri, keçmiş məcburi köçkünlər, ünvanlı sosial yardım alanlar, qadınlar, gənclər və digər kateqoriyalardan olan şəxslərə üstünlük verilir. "Azərbaycanda məşğulluğa dəstək" layihəsi çərçivəsində müxtəlif – çilingər, dərzi, bərbər, dönərxana, foto-atelye, broyler inkubatoru, gözəllik salonu, istixana biznesi, xalçayuma və bu kimi – istehsal və xidmət sahələri üzrə də kiçik bizneslərin qurulmasına dəstək göstərilir.

Nazirlikdən aldığımız məlumata görə, "Azərbaycanda Məşğulluğa Dəstək" layihəsi üzrə aktivlərin paylanması işləri 2022-ci ildə də davam edir. Həmin işlər çərçivəsində bu ilin əvvəlindən paytaxt və regionlarda 766 nəfər işsiz və işaxtaran şəxsə mal və materiallar formasında aktivlər təqdim edilib. Həmin şəxslərin mühüm hissəsi şəhid ailələrinin üzvləri, müharibə iştirakçılarıdır. Verilmiş aktivlər hesabına onlar müxtəlif iqtisadi fəaliyyət növləri üzrə kiçik bizneslərini yaradıblar. Özünüməşğulluq proqramına və qeyd edilən layihəyə cəlb olunan şəxslər ilk mərhələdə təlimlərdə iştirak edərək, kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar qazanır, daha sonra biznes planlarına uyğun aktivlərlə təmin edilirlər. Agentlik tərəfindən, eyni zamanda, 2022-ci ilin planı üzrə 4 mindən çox işsiz və işaxtaran şəxsin peşə kurslarına cəlb edilməsi nəzərdə tutulur. Bu işlər çərçivəsində agentlik beynəlxalq sertifikatlara uyğun mütəxəssis hazırlığına da başlayacaq. Hazırda qurum tərəfindən 127 prioritet istiqamət üzrə peşə hazırlığı həyata keçirilir. Peşə hazırlığına həm işsiz və işaxtaranların, həm də peşə təlim mərkəzlərinin onlayn müraciət imkanı yaradılıb. Həmin formanı doldurmaqla, iştirak üçün qeydiyyatdan keçmək mümkündür.

Qeyd edək ki, Dövlət Məşğulluq Agentliyinin Bakı, Gəncə şəhərlərində və Göyçay rayonunda müasir tələblərə uyğun peşə hazırlığı mərkəzləri fəaliyyət göstərir. Ötən il agentliyin Bakıdakı Peşə Hazırlığı Mərkəzinə beynəlxalq ISO sertifikatları təqdim edilib. Ölkəmizdə ilk ISO sertifikatlı peşə hazırlığı müəssisəsi olan mərkəz fəaliyyətində ISO 9001 (keyfiyyət idarəetmə sistemi), ISO 14001 (ətraf mühitin idarə olunması və qorunması sistemi), ISO 45001 (əməyin təhlükəsizliyi sistemi) standartlarının tələblərini də təmin edəcək.

Hazırda nazirliyin e-sosial.az portalında qeydiyyatdan keçən aktiv istifadəçilərin sayı artmaqda davam edir və hazırda bu say 1 milyon 100 minə yaxındır. 2019-cu ildən istifadəyə verilən portal ölkənin sosial reyestri olmaqla, vətəndaşlara onlar barədə toplanmış bütün sosial məlumatlara (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat və s. üzrə) çıxış imkanı yaradır. Vətəndaş onun barəsində portalda toplanmış məlumatları mütəmadi izləyə bilir və yaranan sosial-əmək hüquqlarının təminatına ictimai nəzarəti həyata keçirmək imkanına malikdir. "Android" və "İOS" əməliyyat sistemlərində də fəaliyyət göstərən bu portala ötən il 10 milyon, bu ilin əvvəlindən 2 milyon 117 min müraciət qeydə alınıb.

ƏƏSMN-nin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin bu il fevralın 1-dən fəaliyyətə başlayan "Qayğı" Çağrı Mərkəzinə (116 123) ötən dövrdə 200-ə yaxın müraciət daxil olub. Hər bir müraciət qeydiyyata alınaraq araşdırılıb və aidiyyəti üzrə yönləndirilib. Müraciətlər əsasən imtiyazlı şəxslərin mənzil və avtomobil təminatı, sosial – psixoloji dəstək, məişət zorakılığından zərər çəkənlərə dəstək, sosial xidmət müəssisələrinə qəbul qaydaları, agentliyin digər fəaliyyət istiqamətləri ilə bağlı olub. Onlardan mühüm bir hissəsi sorğu xarakteri daşıyıb və vətəndaşlara müvafiq məlumatlar verilib. "Qayğı" Çağrı Mərkəzində agentlik tərəfindən göstərilən sosial xidmətlər və müəssisələrə qəbul proseduru barədə məlumatlandırma, məişət zorakılığına məruz qalmış şəxslərə dəstək, Uşaq Çağrı Xətti və onlayn – psixoloji dəstək istiqamətləri üzrə müraciətlər cavablandırılır. Sosial xidmətə ehtiyacı olan hər kəs "Qayğı" Çağrı Mərkəzinə zəng edərək agentliyin təqdim etdiyi sosial xidmətlərdən yararlana, habelə bu xidmətlərlə bağlı məlumatlar əldə edə bilər.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, müharibə əlillərinin yüksək texnologiyalı müasir protezlərlə təminatı sahəsində ardıcıl işlər aparılır. Bu istiqamətli işlərə ƏƏSMN tərəfindən 2020-ci ilin dekabr ayında başlanıb. Ötən dövrdə 44 günlük Vətən müharibəsinin 188 qazisi 196 ədəd yüksək texnologiyalı müasir, 4-cü nəsil protezlə təmin olunub. Eləcə də I Qarabağ müharibəsində, Vətən müharibəsinə qədərki dövrdə hərbi əməliyyatlarda, habelə hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əliliyi müəyyən olunmuş 75 hərbçinin də 80 ədəd həmin protezlərlə təminatı həyata keçirilib. Beləliklə, 263 müharibə əlili yüksək texnologiyalı 276 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib. Bu protezlərlə təminat nazirliyin tabeliyindəki Dövlət Tibbi – Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez – Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində həyata keçirilir. Təqdim edilən "Genium" tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. Həmin protezlər istifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, hərəkətin tam və daha dəqiq tənzimlənməsinə imkan verir.

Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi işlərini Dövlət Tibbi – Sosial Ekspertiza və Reabilitasiya Agentliyi aidiyyəti qurumlarla birgə davam etdirir. Həmin şəxslərdən artıq 2659 şəxsə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyin olunub. Əlillik təyinatı ilə əlaqədar onlara əlillik dərəcələrinə uyğun olaraq birdəfəlik sığorta ödənişi və 5300-dən çox aylıq sosial ödənişlərin (Prezidentin aylıq təqaüdü və əlilliyə görə müavinət, yaxud əlilliyə görə əmək pensiyası) təyinatı aparılıb. Agentliyin həkim – ekspertləri Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların ilk növbədə əyani müayinəsi və müvafiq sənədləşdirmə işləri aparılır. Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə şəhadətnamələr və tibb müəssisələri tərəfindən göndəriş (forma 88) elektron sistemə daxil edilir. Son mərhələdə əlilliyin qiymətləndirilməsi aparılaraq qərar verilir.

Onu da qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli sərəncamının icrası işləri çərçivəsində 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövr ərzində ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş hərbi qulluqçulara "Müharibə veteranı" adı verilib. Nazirlər Kabineti ilə razılaşdırılmış siyahı əsasında "Müharibə veteranı" adı verilmiş həmin şəxslərə dair məlumatlar "Zəfər" altsisteminə daxil edilib. Eyni zamanda, nazirlik tərəfindən onlara Prezidentin aylıq təqaüdü (80 manat) təyin edilib. Təqaüd təyinatı həmin şəxslərə müraciətləri olmadan, e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Müharibə veteranlarına aylıq təqaüd 2022-ci il yanvarın 1-dən rəsmiləşdirilib və həmin vaxtdan hesablanaraq ödənilir.

Bundan başqa, 2021-ci ildə Dövlət Sosial Müdafiə Fondu yaşa görə pensiya təyin edildikdən sonra azı 6 il işləmiş və işləməkdə davam edən 1307 nəfərin pensiyasını yenidən hesablayaraq artırıb. "Əmək pensiyaları haqqında" Qanuna əsasən, şəxs ona yaşa görə pensiya təyin olunduğu gündən sonra işləməkdə davam edərsə, hər 6 ildən (72 aydan) bir onun hesabında toplanmış sosial sığorta haqqı 72-yə bölünərək pensiyasına əlavə olunur. Bu da işləyən pensiyaçıların mənafelərinin daha dolğun təminatına, yaşa görə pensiyaya çıxdıqdan sonra işləməkdə davam edənlərin sosial sığorta sistemində iştiraka marağının stimullaşdırılmasına xidmət edir.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***